Musavat.com

21.08.2020

# Eldar Həsənov qarabağlıların ağsaqqalı və lideridirmi – eloğularından açıqlama



**Keçmiş səfir Eldar Həsənovun həbs olunması onunla bağlı müxtəlif iddiaların da ortaya çıxmasına səbəb olub. Eyni zamanda Eldar Həsənovun həbsinin onun təmsil olunduğu Qarabağ regionundan olan insanları qıcıqlandırdığı, narazılıq yaratdığı deyilir.**

Sosial şəbəkələrdə də bunu sezmək mümkündür. Həmçinin iddia edilir ki, qarabağlılar sabiq səfiri özlərinə ağsaqqal, lider olaraq qəbul edirlər. Ona görə də onun həbsindən narazıdırlar.

**Bəs, qarabağlılar özləri bu haqda nə deyir? Məsələ barədə bir neçə tanınmış qarabağlıya sual ünvanladıq.**




**Akif Nağı: "Eldar Həsənov həmişə Qarabağ camaatının yanında olub"**

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirdi ki, ağsaqqal, lider sözlərinə diqqəti o qədər də yönəltməyə ehtiyac yoxdur: "Eldar Həsənov Qarabağın hörmətli adamlarından biridir. Həmişə Qarabağ camaatının yanında olub, Qarabağ dərdinə, torpaqlarımızın işğal altında qalmasına biganə qalmayıb, Qarabağ həqiqətlərinin təbliği, ermənilərin saxta təbliğatının ifşası üçün əlindən gələni edib. Onun həbsi ilə bağlı xəbər gözlənilməz oldu. Onu dövlətə, milli maraqlara sadiq insan kimi tanımışam. İnanmıram ki, dövlətçiliyimizə qarşı hansısa hərəkəti etmiş olsun. Hər halda hüquq-mühafizə orqanları onun həbsi ilə bağlı qərarı əsas olmadan verməzdilər. İnanıram ki, onun barəsində obyektiv araşdırma aparılacaq, düzgün qərar çıxarılacaq".



**Hacı Əkbər Rüstəmov: "Bu, o demək deyil ki, bütün Qarabağ camaatı onu ağsaqqalı kimi qəbul edib"**

Keçmiş batalyon komandiri, Qarabağ Azadlıq Təşkilatının Ağsaqqallar Şurasının üzvü Hacı Əkbər Rüstəmov isə bildirdi ki, o, ölkənin bölgələrə bölünməsi və hər bölgəyə kimlərinsə lider, ağsaqqal elan olunmasını heç zaman düzgün saymayıb. O ki qaldı Eldar Həsənov məsələsinə, Hacı Əkbər hesab edir ki, onun Qarabağ camaatının müəyyən kontingenti arasında böyük kimi qəbul olunmasından danışmaq mümkündür. Bütün Qarabağ camaatı barədə isə bunu demək düzgün olmaz: "Eldar Həsənov yüksək vəzifələrdə olub, bu səbəbdən müəyyən çevrəsi, yaxınları, dostları, onu müdafiə edənlərin olması təbiidir. Ancaq bu, o demək deyil ki, bütün Qarabağ camaatı və bütün ölkə əhalisi məhz onu ağsaqqalı kimi qəbul edib. Eldar Həsənovun həbsi barədə isə bir şey deyə bilmərəm. Çünki işin içində deyiləm".

**Xalid Kazımlı: "Eldar Həsənov personası ətrafında "xeyirxah adam" reputasiyası formalaşdırmağa nail olub"**

Musavat.com saytının baş redaktoru Xalid Kazımlı isə bildirdi ki, siyasi arenada klan-tayfa sisteminin boy göstərdiyi, el-oba, mahal təəssübkeşliyinin həlledici faktor olduğu ölkədə Eldar Həsənovu "qarabağlıların lideri" adlandırmaq olar: "Müşahidələrimə görə, həm iqtidar düşərgəsində keçmişdə və indi yer alan məmurlar arasında, eləcə də müxalif fikirli insanların sırasında sabiq baş prokurora rəğbət bəsləyən xeyli adam var. Çünki Eldar Həsənov bir xeyli adamın xeyir-şərinə yarayıb, personası ətrafında "xeyirxah adam" reputasiyası formalaşdırmağa nail olub. İndi o adamlar ölkədəki daha iri korrupsioner oliqarxların "başının üstündən" məhz Həsənovun həbs edilməsini siyasi motivlərə bağlayırlar. Hiss olunur ki, bu addımdan narazı qalıblar. Ümumiyyətlə, bu, faktdır ki, köklənmiş, qol-budaq atmış yüksək mənsəbli məmurların vəzifədən götürülməsi də, həbsə alınması da istər-istəməz narazılar kütləsini artırır. Onlar üzdə heç bir aksiya keçirməsə də, ürəklərində narazılıq daşıyırlar. Amma bu, nə vaxt, nə şəkildə büruzə çıxacaq, bəlli olmaz".

Qeyd edək ki, Səbayel Rayon Məhkəməsi tərəfindən Eldar Həsənov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. E.Həsənova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) və 308-1.1-ci (Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə) maddələri üzrə ittiham irəli sürülüb.

**E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**